# XURŞİDBANU NATƏVANIN ŞAİR ÖVLADLARI

*(Əvvəli ötən sayımızda)*

Təbii ki, deyilənlər maraqlı olsa da, mübahisəlidir və uzun illər sonra yazıldığından əsl həqiqəti əks etdirməyə də bilər. Xatirənin Mehdiqulu xanla bağlı ən mübahisə doğuran və yanlış hesab edilən cümlələri aşağıdakılardır: "Dayım Mehdiqulu xan Tiflisdə təxminən keçən əsrin (XIX əsr nəzərdə tutulur - İ.Q.) 90-cı illərində vəfat etmişdir. Dayımın cənazəsin Tiflisdən gətirmək üçün nənəm, mən və başqa qohumlardan oraya getmişdik. Cənazəni Tiflisdən Yevlaxa qatarla, Yevlaxdan Ağdamacan faytonla gətirdilər. Dayımın cənazəsi Ağdamda İmarət qəbiristanlığında dəfn edildi" (yenə orada, s. 24).



Mübahisəli məsələdir: Əkbər xan Naxçıvanski yanılır, Mir Möhsün Nəvvab və rəsmi sənədlərmi?

Mehdiqulu xan 1871-ci ildə yaxın qohumu olan Kərim ağa Cavanşirin qızı Səltənət bəyim Cavanşirlə evlənmişdir. İbrahimxəlil xanın nəvəsi olan Səltənət bəyimdən Xasay Usmiyev adlı oğlu (28 avqust 1881- 6 oktyabr 1928), Ağabikə (avqust 1873-1942), Bilqeyisbikə (1874, iyul- ?) və Əzizəbikə (1876 yanvar - ?) adlı qızları olmuşdur.

Ə.Naxçıvanski xatirəsində dayısı qızı Ağabikə haqqında aşağıdakıları yazmışdır: "Dayımın qızı Ağabikə də gözəl, lətif, amma mərd bir qız idi. Ağabikənin əri şahzadə Əkbər Mirzə Ağabikə tərəfindən vurulmuşdu. Şahzadə çox qorxaq adam olmuşdu. Ağabikə qapı ağzında o yekəlikdə canavarı gülləynən vurmuşdu. Bu vaxt tez Tiflisə knyaza (Mehdiqulu xan Vəfa nəzərdə tutulur - İ.Q.) teleqram vururlar. Knyaz gəlir. Məsələnin üstünü örtmək üçün deyirlər ki, Ağabikənin guya dəliliyi varmış. Düzdür, şahzadə Əkbər Mirzə də sonra sağaldı. Amma o, sonralar Ağabikədən yaman qorxardı"(yenə orada, s.24-25).

Ağabikə Qacar şahzadələrindən olan Bəhmən Mirzənin nəvəsi Əkbər Mirzə Qacarla evlənmişdir. Onların Rzaqulu Mirzə, Rüknəddin Mirzə adlı oğlanları və iki qızları olmuşdur.

Mehdiqulu xan 1900-cü ildə Tiflis şəhəri, Mixaylovski küçəsindəki mülkündə vəfat etmişdir. Tiflisdəki botanika bağındakı gorkəmli azərbaycanlılar panteonunda dəfn edilmişdir. Bəzi mənbələrdə isə Mehdiqulu xan Vəfanın məzarının Ağdamda, İmarət qəbiristanlığında olduğu da bildirilir.

Xanbikə xanım Xasay xan qızı1856-cı ildə Şuşada doğulmuşdur. Hələ kiçik yaşlarından şair-həkim Mirzə Sadıq Sadiqin və şair Mirzə Rəhim Fənanın təsiri ilə şeir yazmağa başlamış, anası Xurşidbanu Natəvanın yolunu davam etdirərək qəzəllər və rübailər qələmə almışdır.

F.Köçərli yazır ki, X.Natəvanın Xasay xandan "iki nəfər övladı olubdur: biri Mehdiqulu xan sani və biri Xanbikə idi ki, Naxçıvan xanlarından İsmayıl xanın oğlu Aman xana verilmişdi" (F.Köçərli. Azərbaycan ədəbiyyatı. II cild. Bakı: "Elm" nəşriyytaı, 1981, s.153).

Xanbikənin oğlu Əkbər xan Naxçıvanski xatirəsində yazır: "Mənim atam Aman xan Naxçıvani Şuşaya gəlib Natəvanın qızı Xanbikəni alır. Bu əhvalat üstündə bu vaxt Qarabağ bəyləri arasında ziddiyyət düşür. Ancaq dayım Aman xanla dost olduğu üçün bu iş bir qədər yatırılır" (Ə.Naxçıvanskinin xatirəsi, s.21). Bu xatirədən məlum olur ki, Əkbər xanın özündən böyük Bəhram xan və özündən kiçik Xaniman adlı qardaşları da olmuşdur. Yenə həmin xatirədə oxuyuruq: "Mən böyük qardaşım Bəhram xanla bir qədər Şuşada qaldıqdan sonra Natəvan bizi Ermənistana oxumağa göndərdi. Biz orda Lunyatin miravoy sudyanın evində qalırdıq. Nənəm bir kənddən gələn mədaxili qardaşım ilə mənə, həm də Lunyatinə verirdi. 15-16 yaşlarında biz məktəbi qurtardıq" (yenə orada, s.22). Xatirə müəllifi bu sözləri yazarkən, çox təəssüf ki, heç bir tarix göstərmir.

Xatirənin başqa bir yerində oxuyuruq: "Nənəm mənə gözəl bir kitab - özünün əlyazmasını bağışlamışdı. Üstü bəzəkli, güllü tikməli idi. Ancaq kitab kiçik qardaşım Xaniman xanın əlinə keçdi. Sonradan kitab kimdə qaldı, məlum olmadı" (yenə orada, s. 26).

Xatirədə müəllif atası haqqında da müəyyən məlumatlar vermişdir. Müəllif yazır: "Atam Aman xanın Naxçıvanda xüsusi mülkü var idi. Şəhərin meyvə bağları, habelə Qıvraq kəndi, Xok kəndinin yarısı atamın idi. O həmin zamanda polkovnik idi və rus-türk (1877) müharibəsində iştirak etmişdi. Bəyazid qalasında gedən vuruşmalarda yaralanmış və orada da sağalmışdır. Atam təxminən 80-ci illərin (XIX əsr nəzərdə tutulur - İ.Q.) əvvəllərində Naxçıvanda vəfat etmiş və orada İmamzadədə dəfn olunmuşdur" (yenə orada, s.22).

Digər mənbələrdə verilən məlumatlardan belə aydın olur ki, Xanbikə xanım 1872-ci ildə Xok və Qıvraq kəndinin atamanı Əmanulla xanla ailə qurmuşdur. Ondan bir neçə övladı olmuşdur. Oğlu Əkbər xan Naxçıvanski 1960-cı illərə qədər yaşamışdır. Polkovnik Əmanulla xan (1845-1891) vəfat etdikdən sonra Xanbikə xanım 1891-ci ildən sonra Gəncədə yaşayan naxçıvanlı tacir, yazıçı Mirzə Cəlilin yaxın dostu Kərbəlayi Cabbar Hacı Ələsgərov ilə ailə qurmuşdur.

Ərinin qulluğu ilə əlaqədar olaraq Xanbikə xanım Naxçıvanda, Tiflisdə, Vladiqafqazda yaşasa da, tez-tez anası ilə məktublaşır, bəzən ailəsi ilə bərabər Qarabağa gəlirdi. Xanbikə xanım 1921-ci ildə Ağdamda vəfat etmiş, İmarətdəki ailə qəbiristanlığında dəfn olunmuşdur. Xanbikə xanı-



nın Azərbaycan və fars dillərində yazdığı şeirlər bir neçə nəzirədən, anası Xurşidbanunun və qızı Ənbərbikənin ayrılığına həsr edilmiş mənzum məktublardan ibarətdir. Bu mənzumələrdə Natəvanın təsiri açıq-aydın şəkildə hiss edilir. Bəylər Məmmədov şairənin təkcə bir şeirinin mətbuat üzü gördüyünü, yerdə qalanları isə arxiv, muzey və əlyazmaları fondunun nadir eksponatlarından olduğunu bildirmişdir.

Bəylər Məmmədov Xanbikə xanımın anası kimi nəfis əl işləri, müxtəlif janrda tikmələr hazırlamaq bacarığı olduğunu da yazmışdır. Onun "Məni" rədifli qəzəli Vasif Quliyevin "Dünənə uzanan cığır" kitabında çap olunmuşdur (Vasif Quliyev. Dünənə uzanan cığır. Bakı: "Şuşa" nəşriyyatı, 2000, s. 21). Bu kitabda göstərilir ki, Xanbikə xanım "Məclisi-üns"ün iştirakçılarından biri idi. Xanbikə xanımın iki şeirinin mətnini burada veririk:

XANBİKƏNİN MƏKTUBU

Ey nuri-düçeşm ata, anə,
Saldın şərəri-fəraq canə.
Ata və ana, bacı və qardaş
Ahı yetişibdir asimanə.
Sənsən onların muradı daim,
Ey bəhri-dilə dürri-yeganə.
Sanma ki, fəraq səndədir tək,
Bu dərdə düşüb hamı zəmanə.
Ata, ana, qardaş ilə bacı,
Daim gətirir adın zəbanə.
Zənciri-məhəbbət iki başdır,
Səbr et, dəxi düşmə sən fəğanə.
Süst eyləmə etiqadı, Şümr,
Əfsus ilə gəlmə sən amanə.
Qəm çəkmə vüsalə tez yetərsən,
Oğlan gərək hicr ara dayana.
Hamı öpürük nənən əlindən,
Ver busə özün bu halə anə!

(Xurşidbanu Natəvan. Bakı: Azərnəşr. Bədii ədəbiyyat şöbəsi, 1938, s. 65 (Redaktoru və ön sözün müəllifi Məmməd Rahim).

Xanbikənin qızı Ənbərkikəyə həsr etdiyi və mətnini buraya daxil etdiyimiz "Məni" rədifli qəzəlində X.Natəvanın doqquz beytlik " Məni" rədifli qəzəlinin təsiri aşkar şəkildə duyulur:

Salıbdır möhnəti-hicrin bir özgə halə məni,
Edibdir dərdü qəmü qüssəyə həvalə məni.
Məgər yoxundu xəbər çəkmişəm nələr sənsiz?
Fələk salıbdı qəmü möhnətü məlalə məni.
Vüsal günləri bir mahi-ənvərim sən idin,
Gör indi ayrılığın döndərib hilalə məni.
Sənin xəyalın ilə mən ki, bağrı qan oldum,
Tərəhhüm eylə, gətir sən də bir xəyalə məni.
Könül sərvəri, mahi-Ənbərim, gözüm nuru,
Təğafül etmə, yetir bir o məhcamalə məni.
Qalmadı tabi-təvanım, tükəndi aramım,
Qərarü səbrim alıb, verdi qəm zəvalə məni.
Nə sən fəraqə dözürdün, nə mən hicranə,
Gəl indi vəslə yetiş, ya yetir vüsalə məni.
Yetiş harayıma, qəmdən məni xilas eylə,
Yəqin ki, öldürər axır bu ahü nalə məni.

(Natəvanın şair qohumları. Bakı: "Yazıçı", 1989, s. 76-77 )

X.Natəvanın Mir Həsən adlı oğlunda da şairlik istedadı var idi və onun "Mir" təxəllüsü ilə yazdığı bir neçəşeir elm aləminə məlumdur.

Mir Həsən ağa Xurşidbanu Natəvanın ikinci əri Seyid Hüseyndən olan oğludur. 1870-ci ildə Şuşada doğulmuşdur. Mir Möhsün Nəvvab hicri 1309-cu ildə (miladi 1891-ci il) onun haqqında yazır: "Mir Həsən ağa mərhum Ağa Seyid Hüseyn ağanın oğludur. Qarabağın istəkli və nəcib əyanlarındandır. Anası Mehdiqulu xan Cavanşirin qızı möhtərəmə Xurşidbanu bəyim Natəvandır. Xoşsifət, xoşxasiyyət, xoş görünüşlü bir cavandır. Fars və rus dilini yenicə öyrənməyə başlayıb. Özü də hərdən şeir deyir. Təxəllüsü Mirdir. Aşağıda yazılmış şeirlər onundur" (Mir Möhsün Nəvvab. Təzkirəyi-Nəvvab. Bakı: "Elm", 2018, s. 194). Bu qeyddən sonra müəllif Mir Həsənin anası Xurşidbanu Natəvanın "Olaydı" rədifli şeirinə nəzirə yazdığı:

Nə zülfi-yarə, İlahi, könül müsəxxər olaydı,
Nə elə zarü pərişan, nə belə müztər olaydı,

- mətləli yeddi beytlik qəzəlini nümunə kimi verir. Şeir yazılmış vərəqənin kənarında sonradan belə bir qeyd var: Biçarə Mir Həsən 1320-ci ildə vəfat etdi(yenə orada, s.194).Bu tarix miladiyə çevrildikdə 1902-ci il alınır.

"Poetik məclislər" kitabında Mir Həsən haqqında aşağıdakı məlumat verilir: "Mir Həsən Seyid Hüseyn oğlu 1869-cu ildə Şuşada doğulmuşdur. Xurşidbanu Natəvanın ikinci ərindən olan oğludur. Şuşada dövlət məktəbini bitirmiş, fars və rus dillərini yaxşı bilmişdir. Mir təxəllüsü ilə klassik üslubda yazmışdır. Əsərlərindən çox az nümunə qalmışdır. Mir Həsən 1902-ci ildə vəfat etmişdir" (Poetik məclislər. Bakı: "Yazıçı", 1987, s.187).

"Poetik məclislər" kitabında da Mir Həsənin anasının qəzəlinə nəzirə yazdığı və M.Nəvvabin təzkirəsində verdiyi yeddi beytlik "Olaydı" qəzəli nümunə kimi verilmişdir. Həmin qəzəl belədir:

Nə zülfi-yarə, İlahi, könül müsəxxər olaydı,
Nə öylə zarü pərişan, nə böylə müztər olaydı.
Nə mahtək doğuban aləmi münəvvər edəydi,
Nə zülməti-şəbi zülfündə dil mükəddər olaydı.
Nə əhd olaydı, nə misaqü sidq olaydı, nə kizb,
Nə də zəmanədə peymanşikəst dilbər olaydı.
Nə sərvqəd olaydı, nə qaməti-şümşad,
Nə də xüramə gələndə qiyami-məhşər olaydı.
Nə odü məcmər olaydı, nə zülfi-qaliyəbu,
Nə də diyari-hüsn içrə müşkü ənbər olaydı.
Nə qaş müqəvvəs olaydı, nə tir tək müjgan,
Nə çaki-sinə edən tiz tiğü xəncər olaydı.
Nə mey olaydı, nə işrət, nə cami-badeyi-nab,
Nə Miri məst eyləyən saqiyi-sitəmgər olaydı.

Qeydlərimizi ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, Allah vergisi olan şairlik istedadı qan, gen yaddaşı vasitəsi ilə Xurşidbanu Natəvandan övladlarına da keçmiş, onlar anaları kimi Qarabağ ədəbi mühitinin aparıcı simaları olmasalar belə, onun yolunu davam etdirmiş, sənətkarlıq cəhətdən kamil, ürəyəyatımlı əsərlər yarada, ədəbiyyat tariximizdə müəyyən iz buraxa bilmişlər.



***İslam QƏRİBLİ,***
***filologiya elmləri doktoru,***
***professor***